**“TUSİ” XEYRİYYƏ CƏMİYYƏTİNİN**

**2024-cü ilin yekunlarına dair**

**H E S A B A T I**

Hesabat dövründə **“Tusi”** Xeyriyyə Cəmiyyətinin İdarə Heyəti tərəfindən təsdiq edilmiş **“2024-cü il üzrə İş Planı”**na uyğun olaraq fəaliyyət göstərilmiş, bir sıra layihələr və tədbirlər həyata keçirilmişdir.

**“Azərbaycanın incisi Ordubad”**ın tarixinə, adət-ənənələrinə, məişət həyatına, mətbəx nümunələrinə, turizm potensialına yönəlmiş bir çox işlər görülmüş, həmin xüsusiyyətlər dəyərləndirilmiş, bu istiqamətdə müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

Ordubadlıların məskunlaşdığı ərazilər üzrə AMEA-nın Folklor İnstitutunda etnoqrafiq xəritənin yaradılması, mövcud adət-ənənələrin qorunub-saxlanılması, habelə Arxelogiya və Antropologiya İnstitutunda **“Gəmiqaya”** və **“Xarabagilan”** daxil olmaqla, digər maddi-mənəvi abidələr ilə bağlı müzakirələr aparılması və elektron təsnifatlaşdırmaya dair işlərin görülməsi labüdlüyü qənaətinə gəlinmişdir.

Azərbaycan Fotoqraflar Birliyinin üzvü, prof., dr., **“Sehirli Ordubad”** layihəsi reallaşdırılmış, foto-sərgisi keçirilmiş və yaxından iştirak edilmişdır. Növbəti ildə **“Ordubad – qədim və müasirliyin harmoniyası”** adlı foto-albomun buraxılması qərara alınmışdır. Cari il ərzində cəmiyyətin saytının aidiyyəti üzrə bölmələri zənginləşdirilmiş və sosial şəbəkə hesabları vasitəsilə Ordubad, eləcə də, ölkəmiz üçün əhəmiyyətli hadisələr və əlamətdar günlərlə bağlı materiallar paylaşılması təmin olunmuşdur.

Ötən il olduğu kimi şəhidlərimizin anadan olduğu və anıldığı günlərdə, **“27 Sentyabr - Azərbaycan Respublikasında Anım Günü”** və **“8 Noyabr – Azərbaycan Respublikasında Zəfər Günü”** tədbirlərində yaxından iştirak edilmiş, Ordubadda olan məzarüstü abidələri ilə bağlı müəyyən işlər aparılmışdır.

Azərbaycan Respublikasında 2024-cü il **“Yaşıl dünya naminə həmrəylik ili”** çərçivəsində **“Elm parkı”** və **“Ordubadlılar Məzarlığı”nın** ərazisi daxil olmaqla yüzlərlə ağac və kollar əkilmişdir. Dövlət səviyyəsində dəstəklənən tədbirlərdə yaxından iştirak edilmişdir.

Bu xüsusda, konkret olaraq aşağıda göstərilən tədbirlər tərəfimizdən reallaşdırılmışdır:

**1.** 2024-cü il üçün Ordubad əsilli görkəmli şəxsiyyətlərə dair məlumatları xarakterizə edən təqvimin hazırlanması;
**2.** Cəmiyyətin rəsmi portallarının təkmilləşdirilməsi, **“ordubadcemiyyeti.az”** (**“tusicemiyyeti.az”**) saytının müntəzəm olaraq yenilənməsi və 100-ə yaxın yeni məlumatların əlavə olunması;
**3.** Azərbaycanda növbədənkənar prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd cənab İlham Əliyevə dəstək ifadə etmək məqsədilə bir qrup tanınmış ziyalının Bakı şəhərindən Ordubad rayonuna səfərinin təşkil olunması;
**4.** **“Rəhim Rəhimov adına Diplom”**un təsis edilməsi, hazırlanması və Naxçıvan Dövlət Universtetinin rektoruna təqdim olunması;
**5.** Biri tələbə, digəri sağlamlıq imkanları məhdud olan (əlil) iki şəxsə maddi yardımın edilməsi və başqa bir tələbəyə kompüterin hədiyyə olunması;
**6.** İki idmançıya dəstək verilməsi və maddi köməkliyin göstərilməsi;

7. Cəmiyyətin **“Elm parkı”** layihəsi ilə bağlı təşəbbüsünün reallaşdırılması - akademik Rəhim Rəhimovun 100 illik yubileyi münasibətilə Naxçıvanda keçirilən Elmi-praktiki konfrans çərçivəsində cəmiyyət üzvlərinin iştirakı ilə Ordubad şəhərində parkın salınması, ağac və kolların əkilməsi;
8. Xüsusi günlər və tədbirlər üçün dizayn-tərtibat işlərinin görülməsi, təltiflərin hazırlanması, çap məhsullarının ərsəyə gətirilməsi və qiymətli mükafatların alınması (poster, buklet, fleyr, foto-tablo və s.);
9. Ordubadın **“7 kənd İcması”**nın təşkilatçılığı ilə tələbə-gənclərlə görüşün keçirilməsi və **“Gənclər qrupu”**nun yaradılması barədə söhbətlərin aparılması;
10. **“Ramazan bayramı**” ilə əlaqədar ehtiyacı olan şəxslərə maddi-mənəvi köməkliyin göstərilməsi;
11. **“Qurban bayramı”** münasibətilə qurban kəsdirilməsi (**“Azərbaycan Uşaqları”** İctimai Birliyi vasitəsilə);
12. **“Ordubad – mənbələr və formalaşması”** və **“Ordubadın Qəhrəmanlıq Dastanı”** adlı kitabların nəşrə hazırlanması və çap etdirilməsi;
13. Ordubadın görkəmli şəxsiyyətlərinin tanıdılması və şəhidlərinin anılması - örnək olması üçün **“Azərbaycanın Birincisi”** adlı maarifləndirmə layihəsinin gerçəkləşdirilməsi;
14. Görkəmli alim Əliqulu Ağalarovun adının əbədiləşdirilməsi ilə bağlı vəsatətin qaldırılması;
15. Kargüzarlıq işlərinin - dövlət və hökümət qurumları daxil, müxtəlif təmayüllü yazışmaların aparılması;
16. Nizamnaməyə uyğun olaraq digər tədbirlər.

Bu dövr ərzində Cəmiyyətin müvafiq hesabına 9 720 AZN maliyyə vəsaiti daxil olmuş, ümumilikdə tədbir və layihələrə isə 12 077 AZV maliyyə vəsaiti xərclənmişdir.

Əminik ki, qədirbilən Ordubadlıların sayəsində, Dövlət Başçımız cənab İlham Əliyevin elan etdiyi növbəti ili – **“Konstitusiya və Suverenlik ili”**ndə də inamla və uğurla fəaliyyətimizi davam etdirəcəyik.

**Bildiririk ki,** 2025-ci il Azərbaycan elm ictimaiyyəti, ictimai-siyasi həyatı və hərb sahəsi üçün olduqca əhəmiyyətlidir. Ordubadda doğulan tanınmış şəxsiyyətlərin yubileyləri bu ilə düşür.

Belə ki, bir neçə sanballı şəxsiyyətimizin, görkəmli ziyalıların anadan olmalarının – böyük alim Yusif Məmmədəliyevin (1905) 120, İsmayıl İbrahimovun (1915) 110, Nəcəfqulu Rəfiyevin (1915) 110, Adil Babayevin (1925) 100, Musa Rüstəmovun (1930) 95, Davud Ordubadlının (1930) 95, Nurəddin Sadıqovun (1935) 90, Namiq Abbasovun (1940) və Cavad Abdinovun (1940) 85 illikləri tərəfimizdən qeyd ediləcəkdir.

O cümlədən, tarixçi, dilçi alim, filosof, ədib, mütərcim, şair, dövlət xadimi Hinduşah Naxçıvaninin (1245) anadan olmasının 780 illiyidir.

Bundan əlavə, 2025-ci ildə dəyərli ziyalılarımız Südef Hacıyevin (1930) 95 illik, Aydın Kazımzadənin (1950) və Etibar Babayevin (1950) 75 illik yubileyləridir.

**“Tusi”** Xeyriyyə Cəmiyyəti olaraq **“2025-ci ili Yusif Məmmədəliyev ili”** elan edirik. Naxçıvan Muxtar Respublikası məktəbləri arasında **“Y.Məmmədəliyev adına fənn olimpiada”**sı və **“Tələbə-mentor”** layihəsini gerçəkləşdirmək niyyətindəyik.